Ədalət.-2016.-1 dekabr.-S.4.

# İSTEDADLAR ÜZƏ ÇIXIR

**Deyirlər ki, istedadsız insan yoxdur. Sadəcə olaraq bəziləri zəhmət hesabına bu istedadı üzə çıxara bilir, bir çoxları isə özünə laqeyd yanaşaraq bu barədə düşünmək belə istəmir. Bir gün də görürsən ki, Allahın verdiyi o istedad itib-batdı.**

İstedadın üzə çıxmasında, çiçəklənməsində bilavasitə pedaqoqların, müəllimlərin zəhməti əvəzsizdir. Çünki onlar hər bir şagirdin, hər bir yeniyetmənin üzərində yarpaq kimi əsir və çalışır ki, həmin gənci həyata səsləyə bilsinlər. Bu mənada zamanından və məkanından asılı olmayaraq, müəllimlərin üzərinə böyük missiya, vəzifə düşür.

Füzuli rayonunda da təhsilin inkişafı davamlı olaraq diqqət mərkəzinə çəkilib. Başqa sözlə demiş olsaq, bütün pedaqoji kollektivlərdə gənclərin vətənpərvərlik ruhunda tərbiyə edilməsi və yüksək biliklərə yiyələnməsi üçün həmişə gərgin işlər gedib. Belə pedaqoji kollektivlərdən biri də 5 nömrəli tam orta məktəbdir. Öncədən onu qeyd edək ki, bu təhsil ocağı rayonun ən nümunəvi məktəblərindən sayılır. Ən azından ona görə ki, hər il bu məktəbi bitirən çoxlu sayda məzun müxtəlif ali məktəbələrin tələbəsi adını qazanır.

Məktəbin direktoru çox bacarıqlı və ziyalı insan olan Səbinə Məmmədovadır. O, bu kollektivdə mütəmadi olaraq təhsilin keyfiyyətinin yüksəldilməsi və müasir yeniliklərin gətirilməsi üçün daim axtarışlar aparır. Demək olar ki, məktəb əsaslı surətdə yenidən təmir edilib. Sinif otaqları müasir avadanlıqlarla və texnika ilə təmin edilib. Təbii ki, bu da tədrisin keyfiyyətinin müasir tələblər səviyyəsində qurulmasına əsaslı köməklik göstərir.

Məktəbdə 200 şagird təhsil alır. Onların təlim-tərbiyəsi ilə 36 müəllim məşğuldur. Bayaq qeyd etdik ki, təlim-tərbiyənin yüksəldilməsi, müəllim-şagird münasibətlərinin müasir tələblərə uyğun qurulması zaman-zaman öz müsbət nəticəsini verməkdədir. Yəni məktəbdə savadlı, vətənpərvər gənclərin yetişdirilməsi istiqamətində çox uğurlu layihələr, tədbirlər gerçəkləşdirilir.

Elə bir ay olmaz ki, bu məktəbdə hər hansı maraqlı ədəbi-bədii kompazisiya, bədii gecələr keçirilməsin. Bir qayda olaraq "Bilik" günü, "Müəllim" günü, "Bayraq" günü özünəməxsus bir ənənə ilə bu kollektivdə xatırlanıb. Bununla yanaşı, müxtəlif müsabiqələrin keçirilməsi də diqqət mərkəzində saxlanılıb. Belə ki, üç mərhələdə keçirilən "Ədəbiyyat biliciləri" müsabiqəsində istedadlı şagirdlər aşkar edilib. Məktəbin VIII-XI sinif şagirdləri məktəblərarası inşa və şeir müsabiqələrində iştirak edərək fərqləniblər. Belə ki, məktəbin şagirdləri inşa müsabiqəsində birinci yerə, şeir müsabiqəsində isə ikinci və üçüncü yerə layiq görülüblər.





Sevindirici haldır ki, kollektivdə tariximiz, milli qəhrəmanlarımız və mədəniyyətimiz zaman-zaman xatırlanır və yad edilir. Belə ki, məktəbin şagirdləri Ulu Öndər Heydər Əliyevin məzarını ziyarət ediblər. Bununla yanaşı, Milli Qəhrəman Mübariz İbrahimovun doğum günündə onun da məzarı ikinci Fəxri Xiyabanda müəllimlər və şagirdlər tərəfindən ziyarət edilib. Eyni zamanda Xocalı soyqırımı günündə Ana abidəsi ziyarət edilərək onun önünə əklillər qoyulub və məktəbdə ədəbi-bədii gecə keçirilib.

"Multikultrializm" ilinə həsr olunumuş rəsm müsabiqəsində məktəbin şagirdləri öz maraqlı rəsmləri ilə fərqləniblər və onlar qeyri-adi bir rəsm işləri gerçəkləşdiriblər. Bu isə o deməkdir ki, şagird təfəkkürü daha da zənginləşir və bu təfəkkürün bəhrəsi özünü göstərir. Bununla yanaşı, Beynəlxalq muzey günü münasibəti ilə Təhsil Nazirliyinin xətti ilə məktəbin şagirdlərindən bir neçəsi ekskursiyada olmuş, mədəni və tarixi abidələrə baxış keçirmişlər. Təbii ki, bu da onların dünyagörüşünün zənginləşməsində önəmli əhəmiyyət kəsb edib. Bir həftə ərzində şagirdlər Bakıda yerləşən müzeylərdə, o cümlədən Heydər Əliyev mərkəzində, Qobustan muzeyində olublar.

Ümumiyyətlə, məktəbin şagirdləri əlamətdar günlərdə, elə bayramlarında tez-tez Horadiz şəhərindəki hərbi hissələrə getmiş, hərbçilərimizlə görüşmüş və onların qarşısında maraqlı konsert proqramları ilə çıxış etmişlər. Bununla yanaşı, "Lələtəpə" yüksəkliyinin azad edilməsini əks etdirən stend də təşkil edilib. Aydındır ki, bu cür vətənpərvərlik tədbirlərinin geniş vüsət alması hər bir şagirdin ürəyində vətənə məhəbbət hissini daha da zənginləşdirir, onların qəlbində döyüşkənlik ruhunu yüksəldir.

Onu da qeyd edək ki, məktəbdə tez-tez təhsilin keyfiyyətini yüksəltmək məqsədi ilə "açıq dərslər" təşkil edilir, müzakirələr keçirilir, viktorinalar və ədəbi-bədii gecələr təşkil olunur. Bu isə bayaq dediyimiz kimi, şagirdlərin intellektinin yüksəlməsində və inkişafında önəmli rol oynayır. "Gənc tarixçilər", "Coğrafiya gecəsi", "Riyaziyyat gecəsi" bu cür tədbirlərə nümunə sayıla bilər.

Ötən il məktəbin 11 məzunu müxtəlif ali məktəbə qəbul olub. Onların arasında Çiçək Məmmədli daha çox fərqlənib. Belə ki, Çiçək Məmmədli 650 balla Azərbaycan Tibb Universitetinin tələbəsi adını qazanıb.

Məktəbin direktoru Səbinə Məmmədova bizimlə söhbətində bildirdi ki, bu yaxınlarda ölkə prezidenti cənab İlham Əliyev Füzuliyə səfər edərkən onunla görüşdük. Cənab prezident bütün sahələrdə olduğu kimi, təhsil işçilərinə də çox böyük qayğı və diqqət göstərir. Təbii ki, bu da biz təhsil işçilərini daha da ruhlandırır. Cənab prezident Füzulidə olarkən biz onunla bir yerdə şəkil də çəkdirdik. Qürur hissi duyduq ki, prezidentimiz bizə arxadır, dayaqdır.

**Səbinə Məmmədova onu da dedi ki, rayon icra hakimiyyətinin başçısı Alı Alıyev və təhsil şöbəsinin müdiri Ramella Məmmədova daim bizə lazımi köməklik göstərir. Belə ki, həm icra hakimiyyəti, həm də təhsil şöbəsi müəllimlərimizi və şagirdlərimizi ruhlandırır, onları lazım gələndə hətta mükafatlandırır. Hər il yüksək bal toplayan məzunlarımız icra başçısı tərəfindən xüsusi hədiyyə ilə qiymətləndirilir.**

**Faiq QİSMƏTOĞLU**